www.bec.az

# əLİLLəR DÜNYASI

№ 02 (37-38) | 05 İYUN 2009-cu il | Editorial "The World of the Disables" | Müstəqil ictimai-siyasi qəzet | Qəzet 2004-cü ildən çıxır

## ABŞ səfirliyinin iqamətgahında ziyafət

***Xəbər verdiyimiz kimi, "Əlillər Dünyası " qəzetinin təsisçisi və baş redaktoru, "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin sədri Tahir Xudiyev bu yaxınlarda ABŞ-ın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Enn Dersinin təşəbbüsü və ABŞ Konqresinin maliyyə dəstəyi ilə "Açıq Dünya Proqramı" çərçivəsində azərbaycanlılardan ibarət nümayəndə heyətinin tərkibində Amerikada səfərdə olmuşdur. Həmin səfər barəsində qəzetimizin 07 yanvar 2009-cu il tarixli №01( 35-36)-ci sayında geniş məlumat verilmişdir. Onu da qeyd edək ki, bu səfər həm də son vaxtlar redaksiyamızın və BƏC-in beynəlxalq əlaqələrinin genişləndiyini göstərən ən mühüm faktlardan biridir.***





Qürur hissi ilə deyə bilərik ki, ötən müddət ərzində qəzetimizin və BƏC-in xarici ölkələrin respublikamızda fəaliyyət göstərən səfirlikləri, xüsusən də ABŞ-ın Azərbaycandakı səfirliyi, həmçinin beynəlxalq təşkilatların respublikamızdakı nümayəndəlikləri ilə də əlaqələri xeyli genişlənmişdir. Elə bu il martın 2-də xanım Enn Dersinin bir müddət öncə "Açıq Dünya Proqramı" çərçivəsində təmsil etdiyi ölkəyə səfər etmiş digər şəxslərlə bərabər, qəzetimizin təsisçisi və baş redaktoru, BƏC-in sədri Tahir Xudiyevi də öz iqamətgahında təşkil etdiyi ziyafət mərasiminə dəvət etməsi də bunu bir daha təsdiqləyir.

Ziyafət zamanı xanım Enn Dersi qonaqları mehribanlıqla salamlamış və onlarla müxtəlif mövzularda maraqlı söhbətlər etmişdir.

Ziyafətdə Prezident Administrasiyasının məsul şəxsləri, NATO-nun yüksək rütbəli zabitləri, azərbaycanlı hakimlər, qeyri-hökumət təşkilatlarının və bələdiyyələrin nümayəndələri, media təmsilçiləri də iştirak etmişlər. Səmimi şəraitdə keçən ziyafət zamanı ABŞ prezidenti qarşısında çıxış etmiş məşhur musiqiçilər də qonaqlar üçün maraqlı konsert proqramı ilə çıxış etmişlər.

Yeri gəlmişkən, xalqımıza, onun zəngin mədəni irsinə, yüksək milli-mənəvi dəyərlərinə və adət-ənənələrinə böyük hörmət hissi ilə yanaşan xeyirxah və qayğıkeş insan, gözəl qadın, təcrübəli diplomat xanım Enn Dersinin Novruz bayramı zamanı keçirilən el şənliklərində ürəkdən iştirak etməsi də onun xalqımızla həmrəy olduğunu bir daha göstərdi. Hətta xanım Enn Dersinin İqamətgahevində gördüyümüz və şahidi olduğumuz ən maraqlı hadisələrdən biri də Azərbaycanda müqəddəs ziyarətgah ocağına çevrilmiş seyyid Mirmövsüm ağanın böyük şəklinin iqamətgahevin giriş hissəsində asılması oldu. Bu faktın özü də bir daha sübut edir ki, xanım Enn Dersi İslam dininə, müqəddəs kitabımız «Qurani-Kərim»ə, xüsusən də dünya müsəlmanlarına böyük hörmət və ehtiramla yanaşır.

Fikrimizcə, belə görüşlərin müntəzəm keçirilməsi məqsədəuyğun və təqdirəlayıq sayılır.

***«Əlillər Dünyası»***

## Almaniyanın Azərbaycandakı səfirliyinin xeyirxah fəaliyyəti

Xeyirxahlıq, humanizm, mərhəmət kimi ümumbəşəri ali hisslər yüksək intellekt səviyyəsinə və zəngin daxili mənəviyyata malik insanların yaşam tərzi, həyat amalıdır. Tam əminliklə deyə bilərik ki, həyatın mənasını yalnız xeyirxah əməllərdə görən belə insanlar təkcə bir xalqa, millətə mənsub olmurlar. Onlar sözün həqiqi mənasında bütün dünyanın vətəndaşlarıdırlar. İrqindən, milliyyətindən, dilindən, dinindən asılı olmayaraq, qayğıya ehtiyacı olan hər bir kəsə köməklik göstərən belə xeyirxah şəxslərin cəmiyyətin rifahına yönəlmiş savab əməlləri həm Uca Tanrı, həm də qədirbilən insanlar tərəfindən yüksək qiymətləndirilir.

Almaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Pyer Kristofer Stankinanın xanımı Kanta Taluktar Stankinanın hazırda respublikamızda həyata keçirdiyi xeyirxah fəaliyyəti bu baxımdan diqqəti xüsusilə cəlb edir.

Xanım Kanta Taluktar Stankinanın ölkəmizdəki xeyirxah fəaliyyətində onun Saray qəsəbəsində yerləşən 7 saylı ağıldankəm uşaqlar üçün İnternat Evinə göstərdiyi maddi-mənəvi dəstək mühüm yer tutur. Məlumat üçün onu qeyd edək ki, bu məktəbdə yüngül problemli uşaqlar üçün 1 sinif fəaliyyət göstərir. Bu məktəbdə "Azərbaycana Birgə Yardım Təşkilatı" ilə birlikdə yaradılan xüsusi məşğələ otaqları xanım Kanta Taluktar Stankinanın maddi köməkliyi hesabına lazımi müasir avadanlıq və vəsaitlərlə də təmin edilib. Eyni zamanda, o, fiziki problemli uşaqlar üçün tələb olunan xüsusi





stol və stulların alınmasını da təşkil etmişdir. Xüsusi məşğələ otaqlarında uşaqlarla məşğul olan 8 nəfər işçinin əmək haqqını da xanım Kanta Taluktar Stankina ödəyir. Qeyd edilənlərlə yanaşı, sözügedən məktəbə yardım edilməsi barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, "Azərbaycana Birgə Yardım Təşkilatı" və xanım Kanta Taluktar Stankina birgə memorandum imzalamışlar. Ümumiyyətlə, xanım Kanta bu məktəbə daim maddi-mənəvi dəstək verir.

Əməkdaşlarımızın xanım Kanta Taluktar Stankina ilə müsahibəsini sizə təqdim edirik.

***- Xanım Kanta, Siz nə vaxtdan Azərbaycandasınız?***

- Mən artıq iki ildir ki, sizin ölkədə yaşayıram.Vaxtımı səmərəli keçirmək üçün əlillər evlərində, uşaq evlərində oldum və əlil uşaqlara necə xidmət göstərilməsi ilə maraqlandım. Onu da bildirim ki, onların arasında çox istedadlı uşaqlar var. Sahib adlı bir uşağın taxtadan hazırladığı əl işləri çox xoşuma gəldi. Belə uşaqlara mən xüsusi diqqət göstərir, maraqlanıram. Düşünürəm ki, onların əl işlərindən ibarət sərgi kecirmək də olar.

**Davamı səh.2-də**

## Ombudsman Aparatında "Əlillərin problemləri və onların həlli yolları mövzusunda "dəyirmi masa" keçirilmişdir

### Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə xanım Hüseynova: "Keçirilən hər belə tədbirin səmərəsi böyük olur"

***Bu yaxınlarda Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Dövlət Müvəkkili (Ombudsman) 5 May-Avropa Əlilliyi olan İnsanların Hüquqlarının Müdafiəsi Gününə həsr olunmuş "Əlillərin Problemləri və onların həlli yolları" mövzusunda "dəyirmi masa" keçirmişdir.***

Tədbiri giriş sözü ilə Ombudsman Elmira Süleymanova açmışdır. Milli Məclisin deputatı, MM Sosial siyasət Komitəsinin üzvü İlham Məmmədov "Əlillərin mövcud problemlərinin həllinə yönəldilmiş qanunvericilik bazası və onun təkmilləşdirilməsi perspektivləri", Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Natiq Məmmədov "Əlillərin cəmiyyətə inteqrasiyası sahəsində mövcud problemlərin həlli və qarşıda duran vəzifələr", Təhsil nazirinin müavini İradə Hüseynova "Əlillərin cəmiyyətə inteqrasiyasında inklüziv təhsilin rolu", Səhiyyə Nazirliyi Tibbi Yardımın Təşkili Şöbəsinin böyük məsləhətçisi Yusif Babayev "Əlillərin sağlamlığı və reabilitasiyası: problemlər və perspektivlər ", Daun Sindromlu Şəxslərin Assosiasiyasının rəhbəri Zərifə Məmmədova "Daun Sindomlu uşaqların imkanları və ehtiyacları", Əlil Təşkilatları İttifaqının prezidenti Davud Rəhimov "Əlillərin mövcud problemlərinin həllində dövlət qurumları ilə vətəndaş cəmiyyətinin əməkdaşlığının əhəmiyyəti" mövzularında məruzələr oxumuşlar.



Məruzələr ətrafınfa geniş müzakirələr olmuşdur.

Məruzələrdə və çıxışlarda vurğulanmışdır ki, əlilliyi olan insanların hüquqlarının müdafiəsi gününün qeyd edilməsi olduqca geniş məna kəsb edir. Ölkəmizdə davamlı olaraq aidiyyəti qurumlar tərəfindən əlillərin hüquqlarının müdafiəsi və problemlərinin həlli istiqamətində silsilə tədbirlər keçirilir. Belə tədbirlər bu qəbildən olan insanların cəmiyyətə inteqrasiyasını canlandırır. Tədbirdə dövlət başçısının müvafiq Sərəncamı ilə İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının (MFP) təsdiq edildiyi həmin sənəddə əhalinin müxtəlif qurumlarının, o cümlədən əlillərin hüquqlarının müdafiəsinə yönəldilmiş tədbirlərin də öz əksini tapması və bu istiqamətdə görülən işlər diqqətə çatdırılmışdır. "Dəyirmi masa"da qeyd olunmuşdur ki, bu məsələ barədə müvafiq dövlət qurumlarına edilən müraciətlərdə əlillyi olan şəxslərin hüquqlarının daha səmərəli təmini məqsədilə irəli sürülən təkliflərin bir çoxu nəzərə alınmışdır.

**Davamı səh. 2-də**

## İnsan Hüquqları aylığı keçirilir

***Ombudsman Aparatının Mətbuat xidmətinin redaksiyamıza verdiyi məlumata görə, ölkəmizin Prezidentinin məlum sərəncamı ilə iyunun 18-i respublikamızda İnsan Hüquqları günü kimi qeyd edilir. İnsan hüquq və azadlıqlarının təmin edilməsi, müdafiəsi ölkəmizdə daim diqqət mərkəzində saxlanılır. Məhz bu qayğının nəticəsidir ki, İnsan Hüquqları üzrə Müvəkkil Elmira Süleymanovanın təşəbbüsü ilə mayın 18-dən iyunun 18-dək respublikamızda İnsan Hüquqları aylığı keçirilir.***

Aylıq çərçivəsində respublikamızın bütün regionlarında insan hüquqları ilə bağlı müxtəlif tədbirlər və müzakirələr keçirilir. Bu tədbirlərin nəticələri barədə məlumat, insan hüquqlarının daha səmərəli təmini ilə əlaqədar təkliflər iyunun 15-dən gec olmayaraq, Ombudsmana təqdim ediləcəkdir.

Həmçinin İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının (MFP) icrasına məsul dövlət qurumlarının və həmin sənədin icrası işinə cəlb olunmuş QHT-lərin, KİV-lərin iştirakı ilə müvafiq maariflendirmə tədbirlərinin təşkili nəzərdə tutulmuşdur.

Bir sıra mötəbər beynəlxalq konfranslar, Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı, həmçinin respublikamızda polis və insan hüquqları mövzusunda tədbirlər, bölgələrdə əhalinin müxtəlif kateqoriyaları ilə görüşlərin keçirilməsi, vətəndaşların insan hüquqları üzrə maariflendirilməsi işinin aparılması, jurnalist yazıları və uşaq rəsm müsabiqələrinin, sərgilərin təşkili və digər silsilə tədbirlər bu qəbildəndir.

Ombudsman İnsan Hüquqları aylığı ilə əlaqədar Azərbaycan Respublikasının təhsil nazirinə məktubla müraciət edərək, tədris ilinin yekunlaşmaq üzrə olduğunu və yay tətilinin başlanması ilə bağlı may ayının sonunadək İnsan Hüquqları günü münasibətilə bütün orta və ali məktəblərdə Müvəkkil təsisatı əməkdaşlarının da qatıla biləcəyi insan hüquqları saatının keçirilməsini tövsiyə etmişdir.

## Bu sayımızda:

**Azərbaycan bayrağı Qeyri-Səlis İnformasiyanın Emalı Şimali Amerika Cəmiyyəti (NAFIPS) forumunda ilk dəfə dalğalanır** Səh.3-də

**Deyirlər, istedad Allah vergisidir... Azərbaycan Respublikası Ali Məhkəməsinin mətbuat xidmətinin rəhbəri Allahverdi Məmmədli** Səh.3-də

**"Dirçəliş" əlillərlə bağlı mətbuat konfransı keçirib** Səh.4-də

**"Əlillər güşəsi" Şəhid ailəsinə biganəlik** Səh.5-də